2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli, 33 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 25 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 119 saylı Ağdam kənd seçki dairəsinin 22 saylı seçki məntəqəsində seçkinin nəticələrinin saxtalaşdırılması ilə əlaqədar həmin seçki dairəsi üzrə Ağdam rayon Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Yusifov Elşən Şahin oğlu və Yusifov Sərxan Həsən oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli, 33 saylı müraciətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

Göründüyü kimi müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **r ə y ə g ə l d i m** :

1. 119 saylı Ağdam kənd seçki dairəsi üzrə Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Yusifov Elşən Şahin oğlu və Yusifov Sərxan Həsən oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmüş 25 dekabr 2014-cü il tarixli, 33 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 119 saylı Ağdam kənd seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**